# QƏLB ÖMRÜ

## *“Qəlbindəkini deməyən qəlpdir”*

“Qəlb”lə “Qəlp” arasında bir səs, bir hərf fərqi var. Bu səsin çəkisi, bu hərfin ağırlığı dünyalardan ağırdır, kainatı çəkər. Çünki insan da bir kainat, qalaktikadır. Çünki insan qəlbinin genişliyi, ənginliyi asimandan daha geniş, daha əngindir. İnsan qəlbinin də öz qalaktikası, öz eşq, öz cazibə qanunu vardır.

Hər kəsə “Ürəyi var” demək olar, amma hər kəsə “Qəlbi var” deyilməz. Çünki ürək hələ qəlb demək deyil. Ürək eşqlə dolanda, sözlə dolanda öz qalaktikasını yaradaraq qəlb olur. Eşqi olmayan, sözü olmayan ürək qəlpdir.

Müdrik Dədələrin hikmət bulağından su içən, söz çeşməsi Koroğlunun suyundan içib yuyunduğu “Qoşabulaq” kimi çağlayan Zal Əziz oğlunun dediyi “Qəlbindəkini deməyən qəlpdir” kəlamında daha bir hikmət gizlənib: Qəlbindəkini deməyi bacarmaq qüdrəti. İgid babalar qəlblərindən keçənləri ya sazla, ya da nərəylə deyiblər. Bununçün bir yaz yağışında yuyulan kimi “Qoşabulağ”ın suyunda yuyunmaq lazımdır.

İlhamın Dirili Aşıq Qurbani içdiyi çeşmədən su içib. O, vəhdət şərabı içib haqq aşiqi oldu, sən Arazın suyunda yuyunub haqq şairi oldun. Odur ki, ilhamın çağlayır, sözün tükənmir. Zamanın haqq sözünü lazım gələndə nəğməylə, lazım gələndə nərəylə deməyi bacarırsan. Amalın zamanın həqiqətini qəlbinin eşq süzgəcindən keçirib, haqq səsini ata-babaların meyarı ilə ölçüb-biçib insanlara çatdırmaqdır. Bu atanın ölçü meyarı idi. Bu meyarı sənə verdi. Bu meyar indi sənin əlindədir, sənin dilindədir, sənin sözündədir.

Söz deyən çoxdur. Əsl müdrik sözlər isə ünvansızlığa gedib çıxır. Çünki hər ürəyə yol tapıb ağızdan-ağıza, dildən-dilə düşür, ünvansızlaşır, müəllifi anonimləşir, adını xalq əvəz edir. Atalar sözünə çevrilir.

Sən Sözün, Həsrətin, Azadlığın ahəngini Səsinin zirvəsinə qaldırdın.

Səsin var olsun, Səs sahibi!

Sən Diri dağının ətəyində doğulmusan. Diri dağının dirilik suyundan içmisən. Odur ki sözün dağ kimi uca, su kimi saf, əbədi və diridir. İlk kitabının adı “Karvan körpüdən keçir” adlanır. Məncə, “K” səsinin alletrasiyasından yaranan bu ad təsadüfü deyil. Bəlkə, özün də fərqinə varmamısan. Ancaq bu ad Diri dağının bulaqlarından su içən ulu babaların ruhunun diqtəsi ilə qoyulub. Bu Karvan əbədiyyət körpüsündən keçən Söz karvanıdır. Sən də bu karvana qoşulub İlahi “Sözə doğru” yol gedirsən.

Karvanın var olsun, yolçu!

Artıq “Dünyanın söz üzü” sənə tanışdır. Sözün “Meyar”ını, ölçüsünü yaxşı bilirsən. “Yaddaşa aparan yollar”dan keçib “Həyatın dastanı”nı yaradırsan. Bu yollarda “Qırmızı həqiqətlər”in üzünü görüb, “Azadlığın qanı”nı dadıb “Ölməzlik nəğməsi”ni oxuyursan. Qarşında bir “Həsrət körpüsü” var. Ürəyində bu həsrətin “Agrı”sı, “Od”u yaşar.” Bir ayrılıq odu var” qəlbində. Bu həsrətə qovuşmaq “Əbədi həyat arzusu”dur. “Söz içində Söz” gəzib “Bir bayatı çağırdım”.

Dünyada haqq gəzəli
Haqlı gördü göz əli.
Gəzdiyim yeddi aləm –
Sözün yeddi gözəli.
Aləmin var olsun, Söz sahibi!

* * *

Sələflərinin mənəviyyat yolunu keçən şair hər sözdə məna axtarır. Sözün yaxasını açmağı bacarır. Ürəyi yana-yana söz ocağını alışdırır. Fikirlərini qəlbinin odunda qızdırıb, bişirib ifadə edir:

Ürək yana – görərsən,
Qana-qana görərsən.
Sözün də yaxası var,
Açsan, məna görərsən.

Sözün yaxasın açmağı anasından öyrənib. Sözə gül vurmağı, naxış vurmağı anasından öyrənib. “Anamın nağılı” poeması elə Əli Rzanın anasının ruhuna toxuduğu söz naxışıdır, mənə çələngidir. Analara həsr olunmuş minlərlə şeirin içərisində anasına olan sevgisini özünəməxsus şəkildə ictimailəşdirə bilmişdir şair Əli Rza Xələfli.




Şairin yaradıcılığı ilə tanış olduqca hiss edirsən ki, o, həyata, dünyaya, insanlara ucalıqdan baxmağı bacarır.

Ucalığın var olsun, şair!

Əli Rza Xələfli el dərdini danışan aşıqdır. “Başını qolu üstə alan Vətən dünya” – anası onu aşıq doğub. “Sazının simləri qəlbinin telidi”, “mizrabı dərdinin dili”. Bir “Sevda dəlisi” “haqq aşığı”dır Əli Rza. Odur ki, ürəyinin telləri ilə elin dərdini dilləndirir. “Ruhani” ha-

**“KREDO” qəzetinin 20 illiyi münasibəti ilə Əli Rza Xələflini və qəzetin bütün cəfakeşlərini təbrik edirəm!**



vası üstündə yanır, “Yanıq Kərəmi” üstündə yandırır.

Kölgəsini qılınclayanlar da var. Namərdlər həmişə olub, olacaq. Məmməd Araz demişkən, “torpağı min dəfə ələyib çevirsən də, namərdlə mərd yanaşı göyərir.” Allah namərdlərə heç vaxt fürsət verməsin. Oğlunu düşünən ana narahatlığı necə də gözəl ifadə olunub “Anamın nağılı”nda:

Kölgəni doğrayan, kəsənə de ki,
Səni bir nəsilə işıq doğmuşam.
İnsanlıq payında ozanlar təki
El dərdi car çəkən aşıq doğmuşam.

Ananın bir nəsilə doğduğu işıq bu gün bir yurdun, kəndin, şəhərin sərhədlərini keçib öz gücü, cərəyan şiddəti ilə ölkə civarında paylanmaqdadır.

İşığın sönməsin, Aşiq!

Yaddaşında “Bir çinar hekayəsi” var şairin. “Araz qırağında yeri göynəyən” “uşaqlıq çağının əmanəti.” Budağı, qolu sınsa da, yağı qabağında qüruru sınmayan, məğrur dayanan Çinar dastanı var.

Oxatan bürcündə, ilan ilində,
Bir bulaq başına əkildi qələm.
Tanrı dəftərində, mələk əlində
Bir tifil bəxtinə çəkildi qələm.

Çinar böyüdükcə neçə-neçə həsrət böyüdü, ayrılıq ağrısı yaşadı yurdun taleyində. Zaman ayrılıq qələmi çəkdi tifilin bəxtinə. Tarixin neçə-neçə ayrılıq ağrısını dadan Vətənin taleyi bu tifilin taleyində də yeniləndi.

Ümid bu yerlərdə qəribdən-qərib,
İnam qara geymiş dərdli qələmdir.

Ürəyində qələminin gözündən süzülüb gələn ümidi taleyindən qərib düşmüş həsrətdir. Vətəni ikiyə bölən Araz həsrəti, yağı tapdağında inləyən doğma yurd həsrəti. Həsrət şairin qəlbində, haraya yetməyən vüsal isə o tayda qalıb. Ancaq şair inamını itirmir. Bilir ki, doğma yurdun daşına, torpağına yazılmış səbir onu gözləyir. Bilir ki, o yollar, o dağlar, közərən ocaqlar, öpdüyü bulaqlar ... onu gözləyir. Odur ki, üzünü doğma Çinara tutub deyir:

Bəxtimə əkilən çinar qardaşım,
Gövdələr, budaqlar, gözlə, gələrəm.
Mənim ömür payım – kitab yaddaşım,
Qələmlər, varaqlar, gözlə, gələrəm.
Yaddaşın var olsun, Yurddaş!

Əli Rza Xələflinin amalı Sözdür. Sözünün amalı “Kredo”. Bu gün ölkədə tirajlanan çoxsaylı mətbuat orqanları arasında öz sözü, öz mövqeyi, öz amalı olan qəzetlərdəndir “Kredo”. Qəzetin hər nömrəsində redaktorun elmi-bədii təfəkkürü, publisist səriştəsi və cəsurluğu, tariximizin, mədəniyyətimizin, mənəviyyatımızın incilərini təbliğ edən söz cəfakeşi, qələm cəfakeşi olduğu görünür. Dərin məzmunlu , əhatəli, mənalı silsilə məqalələri oxuduqca hiss edirsən ki, qəzet öz imkanlarından daha artıq ifadə olunmağa çalışır.Bu qəzetdə Əli Rzanın müəllimliyi, şairliyi, yazıçılığı, tənqidçiliyi, publisistliyi, filoloqluğu, jurnalistliyi, redaktorluğu... öz ifadəsini tapır. O, ağrılı-acılı qəhrəmanlıq tariximizi, min illərin süzgəcindən süzülüb gələn mənəvi dəyərlərimizin carçısı kimi çıxış edir.

“Kredo”n, qayən var olsun, Amal sahibi!

* * *

“Bu mərdliyi, bu hikməti kimə verib gedirsən?”- sualına: “Kim götürə bilsə, ona,”- cavabını vermişdi Zal kişi. Sərras, aydın və həsrətlə yoğrulmuş inam dolu baxışlarla sənə baxmışdı. Ləyaqətli oğul kimi onun inamını doğrultdun. O mərdliyi, o hikməti götürə bildin, qardaş. Elə o mərdliyi, o hikməti götürə bildiyin üçün bu gün ədəbiyyatda bir Qəlb ömrü yaşayırsan.

QƏLBin var olsun, inam sahibi!

Yazdım və burada da sözüm bitmədi. Gördüm ki, dostumun poetik yaradıcılığından gələn təəssürat elə onun özünə ünvan şeirlərə çevrilir. Birinci şeir - “RUHUMUZ YUYULUB YAZ YAĞIŞINDA” adlanır. Bu şeiri Əli Rza Xələflinin “Yuya ruhumuzu bir yaz yağışı” misrasını epiqraf etməklə yazdım:

Dözdün hər əzaba gətirib tabı,
Ümmanlar götürər ovcunun qabı.
Sözünlə tükənər Sizif əzabı
Qərib taleyinin dağ yoxuşunda,
Ruhumuz yuyulub yaz yağışında.

Həqiqət yolunu varıb keçmişik,
Dağları, daşları yorub keçmişik.
Bütün tilsimləri yarıb keçmişik
Ana duasının gül naxışında,
Ruhumuz yuyulub yaz yağışında.

Həyat imtahana çəkir hər kəsi,
Bağlı qapıları döyər haqq səsi.
Sökülər dünyanın yalan pərdəsi
Şairin həyata mərd baxışında,
Ruhumuz yuyulub yaz yağışında.

Deməyin, bu dünya zülmət dünyadı.
İşıqdır, nur saçır hər söz ustadı.
Yarar qaranlığı ildırım odu
Şimşəyin zirvədə hər çaxışında,
Ruhumuz yuyulub yaz yağışında.

Sevgi yolumuzda ürəyin sərər,
Haqqın bostanından könül bar dərər.
Sözün sabahına inam göyərər
Günəşin dan üzü nur doğuşunda,
Ruhumuz yuyulub yaz yağışında.

Gəzir başımızda eşqin havası,
Sözdür min bir dərdin ilkin dəvası.
Yandırar zülməti sözün lavası
Hikmət vulkanının od yaxışında,
Ruhumuz yuyulub yaz yağışında.

Bu da ikinci şeir. mənə elə gəlir ki, Ə.R.Xələflinin Qarabağa bu qədər can atımı təkcə onun öz istəyilə deyil. Həm də yurdunun onu çağırmağı, gözləməyi ilə bağlıdır. Mən də elə bunun üçün deyirəm: O yerlər, o doğmalıqlar “GÖZLƏYİR SƏNİ”.

Uca dağlar kimi, ay uca dağlı,
Yurdun həsrət çəkir, dili soraqlı.
Bəxtinə əkilmiş o şax budaqlı
Xan çinar qardaşın gözləyir səni.

Xəyalın tərlantək göylərdə gəzən,
Haqq yolda hər dərdə, əzaba dözən.
Yurdunda düşmənin ayağın əzən
Pir olmuş mərd daşın gözləyir səni.

Zamanın sərtliyi qarda, sazaqda
Saxlaya bilmədi səni bucaqda.
Ayrılıq yeliylə sönən ocaqda
Qaralmış yurd daşın gözləyir səni.

Dağtək vüqarında səbir, dözüm var,
Dağqəlbli daşlarda neçə sözün var.
Hər yolda, cığırda ayaq izin var
Min sirrin, sirdaşın gözləyir səni.

Yurdun səbri yaşar hər bir daşında,
Oğlunu gözləyər ahıl yaşında.
Çinar kölgəsində, süfrə başında
Qurduğun bardaşın gözləyir səni.



*Ağamir CAVAD*